# Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələdə:

# Strateji müttəfiqlik iki ölkəni daha da gücləndirəcəkdir



**"Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır".**

**İlham ƏLİYEV**






**Beynəlxalq aləmdə etibarlı tərəfdaş olan Azərbaycana göstərilən etimad və inam təkcə regionla məhdudlaşmır. Bu gün güclü və qalib Azərbaycan yeni reallığın müəllifidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın regional və qlobal miqyasda rolunu gündən-günə gücləndirir.**

Ötənlərə nəzər salsaq, Azərbaycan və Özbəkistan xalqları arasında mənəvi bağlar üzərində olan münasibətlərin çoxəsrlik tarixə malik olduğunu görərik.

Həm Azərbaycan, həm də Özbəkistan iqtisadi baxımdan türk dünyasının qüdrətli dövlətlərindəndir. Türk xalqlarının birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, ortaq dəyərlərimizi birləşdirmək Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədlərindən olmuşdur.

Bu gün isə möhtərəm Prezident İlham Əliyev Özbəkistan ilə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişafına xüsusi diqqət yetirir. Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqamətlərindən biridir. İki ölkə arasında əməkdaşlıq səyləri, o cümlədən iqtisadi-ticarət, investisiya tərəfdaşlığı getdikcə genişlənir. Hazırda Özbəkistanla əlaqələrin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi dostluq münasibətləri də həlledici rol oynayır.

Türk dünyasında Özbəkistan Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biridir. Son zamanlar iqtisadi əməkdaşlıq sahəsində bir çox layihə həyata keçirilir. Müxtəlif məhsullar üzrə iki ölkə arasında idxal və ixrac, o cümlədən yaranmış əlverişli investisiya mühitini dəyərləndirmək üçün qarşılıqlı olaraq investisiya qoyuluşları həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri çərçivəsində təşkil olunan və hər iki ölkənin işgüzar nümayəndələrinin iştirak etdiyi görüşdə "Matanat A" Şirkətlər Qrupunun fəaliyyəti və həyata keçirdiyi beynəlxalq layihələr barədə məlumat verildi. Heç şübhəsiz, cənab Prezidentin sahibkarlara göstərdiyi diqqət və qayğının nəticəsində şirkətlər qrupu bu gün qloballaşaraq dünya miqyasında tanınan və ən son innovativ texnologiyalar ilə məhsullar istehsal edərək, ölkənin sosial-iqtisadı həyatında əsas rol oynayır. Məhz dövlətimizin qayğısı və diqqəti sayəsində şirkətimiz tərəfindən Özbəkistanın Qaşqadərya vilayətində gips və gips-karton məhsullarının istehsalı zavodunun inşası həyata keçiriləcək. Cənab Prezident "Matanat A" Şirkətlər Qrupuna aid olan zavodların açılışında hər zaman şirkətlər qrupumuzun fəaliyyəti ilə mütəmadi tanış olduğunu bildirərək, bunların ölkə iqtisadiyyatına və sənaye istehsalının inkişafına böyük töhfələr verdiyini vurğulamış, dövlətin dəstəyi ilə fəaliyyətimizi daha da genişləndirməyi tövsiyə etmişdir.

Dövlət başçısının yerli şirkətlərin xarici ölkələrə sərmayə qoyuluşunu dəstəkləməsi və məqsədəuyğun hesab etməsinin nəticəsi olaraq bu tarixi səfərdə qardaş ölkədə təməli qoyulan zavodumuz, eləcə də gələcəkdə həyata keçiriləcək digər beynəlxalq layihələrimizin hər biri ölkəmizin inkişafına xidmət edəcək.

Şübhəsiz ki, ölkələri birləşdirən dəyərlərin əsasını mədəniyyət təşkil edir. Azərbaycan və Özbəkistan arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində tarixən mövcud olan əlaqələr möhkəm təməllər üzərində qurulmuşdur. Ölkələrimiz tarixi, dini, mədəni əlaqələr baxımından bir-birinə çox yaxındır. Azərbaycan-Özbəkistan arasında mövcud olan mədəni əlaqələr bu xalqların tarixi keçmişinə əsaslanır.

Səfər çərçivəsində təşkil olunan təntənəli qala-konsert proqramında hər iki xalqın bir-birinin mədəniyyətindən bəhrələnməsi bir daha qardaş Özbəkistanla möhkəm mənəvi bağlılığımızın yüksək göstəricisidir.

Dünya ədəbiyyatına misilsiz töhfələr verən Nizami Gəncəvi, Əlişir Nəvai kimi dahi şəxsiyyətlər yetişdirən Azərbaycan və Özbəkistanın dostluğu sarsılmaz və əbədidir. Türk qardaşlıq dünyasının lideri möhtərəm Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" deyərək ortaya qoyduğu yeni hədəflər türk dünyasının gələcəyinə və münasibətlərin daha da möhkəmlənməsinə yeni töhfələr verəcək.



***Elxan BƏŞİROV,***
***"Matanat A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri***

Azərbaycan.- 2024.- 30 avqust (№186).- S.5.